SALAM
INTERNATIONAL YOUTH FILM FESTIVAL

# BEYNƏLXALQ YENİYETMƏ FİLM FESTİVALI

2-ci buraxılış

Follow us:
@salamfilmfestival
www.salamfest.az

## 28-31.08.2023

SALAM INTERNATIONAL YOUTH FILM FESTIVAL 2023
2nd edition

"SALAM"
International Children & Youth Film Festival

**To whom it may concern,**

We're thrilled to invite you to the third edition of the «Salam» International Children & Youth Film Festival and embark with you on a cinematic journey from August 26th to 29th, 2024, in the vibrant city of Baku, Azerbaijan!

Anticipate a rich array of events, including screenings of the latest films, engaging discussions with esteemed directors and actors, enlightening masterclasses, and so much more! It promises to be a celebration of cinema, offering participants a profound immersion into the world of moviemaking.

At the core of the "Salam" IYFF lies the objective of fostering meaningful connections and celebrating cultural exchange among teenagers from around the world, all while celebrating the diverse tapestry of our homeland's culture. Each participant will have the exciting opportunity to serve as a jury member, watching films in high-quality and contributing to the selection of the finest works in each category.

We are already working on a program for "Salam" 2024, with an estimated 500 teenagers set to partake in this spectacular event. And with representatives from over 20 foreign countries expected to attend, the festival promises to be a melting pot of creativity and friendship, leaving each participant with cherished memories to last a lifetime.
As always, boarding and lodging will be fully provided by the festival. Travel expenses to and from Baku will be the responsibility of participants, chaperones and guests.
Participation requirements also remain unchanged: passion for cinema, an active participation in debates and good adaptability.

**The Invitation is for:**

- 2 Jurors for the section **GENERATOR +13 UP TO 16**

- 2 Jurors for the section **GENERATOR +16 UP TO 18**

-1 Chaperon

Deadline for the application of the full list of participants and chaperones is on 15th of May 2024.Your country's delegation should be in Baku on 25th of August and leave after the completion of the festival on the 30st of August.

In order to facilitate the processing of your travel arrangements, we kindly request that you provide us with your passport details for the invitation letter necessary for your visa application.

We eagerly await your response and sincerely hope that you will join us for a memorable experience at the third edition of "Salam" IYFF.
Thank you for your time and hope to see you on August 26.

Founder & CEO
Nariman Mammadov

Telefon:(994 12) 564 38 09; (994 12) 491 63 79
Mob.: (994 55) 216 32 65; Tel/Faks: (994 12) 464 42 37
E-mail: salamfest@narimanfilm.az URL:http://www.narimanfilm.az







1. Zira Eco-Park
* Zira Settlement, 40 Seyid Azim Shirvani, Baku 1120

2. Heydar Aliyev Center (GATHERING POINT)
* 1 Heydar Aliyev Ave, Baku 1033

3.The Old City

4.The Old City (FESTIVAL BUS POINT)

5. “Shah Palace” (HOTEL)
* 47 Kichik Qala, Baku

6. Qaynana (RESTAURANT)
* 126 Kichik Qala, Baku

7. Old Garden (RESTAURANT)
* Iceri sheher, Qulle kucesi 22, Baku

# THANKS TO OUR SPONSORS AND PARTNERS!

# NƏRİMAN MƏMMƏDOV

Festivalın təsisçisi və direktoru,
“Narimanfilm” kinostudiyasının direktoru,
Əməkdar mədəniyyət işçisi

Mən çox şadam ki, Salam Beynəlxalq Yeniyetmə Film Festivalı qayıdıb və biz onun ikinci buraxılışını həyata keçirəcəyik. Festivalın geri qayıtmasını səbirsizliklə gözləyən və bu kino bayramının bir hissəsi olmaq arzusunda olan çoxsaylı gəncləri görmək məni ürəkdən sevindirir. Bu il Festivalın iştirakçılarının sayı 350-dən artıqdır. Festivalın ilk buraxılışının iştirakçıları isə öz əziz xatirələrini yeni gələnlərlə bölüşməkdən məmnundurlar və onlarda həyatları boyu qalacaq təəssüratlar yaradırlar. Salam Beynəlxalq Yeniyetmə Film Festivalının artıq görkəmli brendə çevrildiyini bəyan etməkdən böyük qürur duyuram. Onun yaradılması azərbaycanlı yeniyetmələrin və onların digər həmyaşıdlarının təcrübələrinin zənginləşdirilməsi məqsədi daşıyır. Amalımız elə bir platforma təqdim etmək idi ki, bu platforma onları nəinki əlamətdar filmlərlə tanış edir, həm də onların yaradıcılıq potensialının inkişafını təşviq edir. Bundan əlavə, festival mədəniyyət mübadiləsini, dostluq əlaqələrinin qurulmasını və xalqlar arasında sərhədlərin ləğvini tərənnüm edir. Bu, həm də yeniyetmələrə qonaqpərvər ölkə olan Azərbaycanın zəngin mədəniyyəti ilə tanış olmaq üçün gözəl imkan yaradır. Bu ruhlandırıcı səyahətimizdə göstərdikləri dəstəyə görə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinə, əvəzsiz baş sponsorumuz “Pasha Holding” şirkətinə və bütün digər hörmətli tərəfdaşlarımıza dərin minnətdarlığımı bildirirəm.



# NARIMAN MAMMADOV

Festival founder and CEO,
“Narimanfilm” film studio director,
Honoured Cultural Worker

I am thrilled to announce the return of the Salam International Youth Film Festival for its second edition! It brings me immense joy to see the festival making a comeback.

I am heartened by the anticipation displayed by numerous young individuals who were eagerly awaiting our festival, yearning to be a part of this cinematic celebration. This year, we've witnessed an impressive participation count of 350 enthusiastic individuals. Our returning participants from the previous festival are delighted to share their cherished memories with the newcomers, creating lasting impressions that will endure throughout their lives.

I take great pride in proclaiming that the Salam International Youth Film Festival has now evolved into a distinguished brand. Its inception was centered around enriching the experiences of Azerbaijani teenagers and their global counterparts. Our goal was to provide an unforgettable platform, one that not only exposes them to remarkable films but also encourages the cultivation of their creative potential. Additionally, the festival fosters cultural exchange, friendship building, and the dissolution of borders between nations. It also offers a wonderful opportunity for teenagers to acquaint themselves with the rich culture of Azerbaijan, a hospitable and vibrant country. I express my deep gratitude to the Ministry of Culture of the Republic of Azerbaijan, our invaluable main sponsor “Pasha Holding” and all our other esteemed partners for their support in this inspiring journey.

# LEYLA DOSTƏLİZADƏ

Festivalın Art-direktoru, "Narimanfilm" kinostudiyasının İctimaiyyətlə Əlaqələr üzrə Direktor müavini

Salam, əziz "Salamçılar"! Dörd illik fasilədən sonra yenidən Sizinlə görüşmək, macəra eşqi ilə parlayan gözlərinizi görmək, özünəinam hissi ilə dolu nitqlərinizi eşitmək çox xoşdur. Sizin üçün çox darıxmışdıq. Və Festivaldan öncə baş tutan görüş və danışıqlardan belə qənaətə gəldik ki, Siz də bizi unutmamısınız.
"Salam" Beynəlxalq Yeniyetmə Film Festivalının gənclərimiz tərəfindən sevilməsini duymaq, Festivalın ilk buraxılışının artıq yeniyetmələrdə və valideynlərdə gözəl xatirələr yaratdığını bilmək çox qürurvericidir. Demək, komandamızın zəhməti hədərə getməyib. "Salam" BYFF-2023 könüllülərinin böyük əksəriyyətinin festivalın birinci buraxılışının iştirakçıları olması buna daha bir sübutdur. Çox sağ olun ki, bizimləsiniz! Çox sağ olun ki, öz güvəninizlə bizi yeni-yeni zirvələri fəth etməyə ruhlandırırsınız! Etimadınızı doğrultmağa çalışırıq: Festivalda nümayiş üçün ən son, məşhur festivallarda iştirak etmiş filmlər seçilib, proqrama yeni interaktiv seminarlar daxil edilib. İnanıram ki, "Salam"-ın ikinci buraxılışı həddən artıq maraqlı keçəcək, Festivalın hər günü ecazkar məqamlarla dolu olacaq və yeniyetmələrimizin qəlbindəki yaradıcılıq ruhunu daha da dirçəldəcək!



# LEYLA DOSTALIZADEH

Festival Art Director, Deputy Director of Public Relations of the film studio "Narimanfilm"

Hello, dear "Salam" participants! It is truly wonderful to reunite with you after a four-year break, to witness the sparkle of enthusiasm in your eyes, and to listen to your speeches brimming with self-confidence. We've missed you immensely, and from the discussions that occured before the Festival, it's evident that you haven't forgotten about us either.

It's a tremendous honor to learn that the "Salam" International Teen Film Festival continues to be cherished by our youth. Knowing that the inaugural edition of the Festival has already left wonderful memories for teenagers and parents alike warms our hearts. This realization validates that the relentless efforts of our team have borne fruit. The fact that the majority of volunteers for "Salam" BYFF-2023 are former participants of the first festival is yet another testament to this. We extend our heartfelt gratitude to them for standing by our side. Thank you for kindling the fire of confidence within us, motivating us on to attain new heights. We are committed to upholding your faith in us: we have curated an array of recent films showcased at famous festivals for screening at our event, and we've introduced fresh interactive workshops into the program. I am optimistic that the second edition of "Salam" will captivate hearts. Each day of the Festival promises to be brimming with remarkable moments, rekindling the creative spirit within the hearts of our teenagers.

# NƏRGİZ BAĞIRZADƏ

Ssenarist, Yazıçı

Bu il Salam Beynəlxalq Yeniyetmə Film Festivalının müstəsna komandasının bir hissəsi olmaq mənə hədsiz sevinc gətirir. İlk festival iştirakçılarından saysız-hesabsız əziz xatirələr və ilham dolu söhbətlər eşitmişəm. Səbirsizliklə özümü həmin atmosferə qərq etmək üçün fürsəti gözləyirəm. Mənə göstərilən etimada görə minnətdaram ki, festivalın proqramının formalaşdırılmasına öz töhfəmi vermək imkanı almışam. Biz filmləri qəlbimizin səsini dinləyərək seçmişik: təkcə istedadlı və yenilikçi deyil, həm də dünyanın müxtəlif mədəniyyətlərini və tarixlərini təmsil edən filmləri seçmişik. Arzumuz budur ki, festivalımızın iştirakçıları kino sənəti ilə dərindən tanış olsunlar, bu tədbir zamanı füsunkar hekayələr ətrafında birləşsinlər və öz şəxsi hekayələrini paylaşsınlar. Ümid edirik ki, festival iştirakçıları Azərbaycanın mədəni zənginliyini hiss edəcək, öz ölkələrinə olan sevgilərini və sərhəd tanımayan dostluqlarını bölüşəcəklər.



# NARGIZ BAGHIRZADE

Scriptwriter, writer

It brings me immense joy to be a part of this year's exceptional team for the Salam International Youth Film Festival. The first festival left a profound mark on me, leaving behind countless cherished memories and a lot of inspiration drawn from its participants. I eagerly await the opportunity to immerse myself in that very same atmosphere once more.

I am grateful for the trust placed in me, allowing me to contribute to the shaping of the festival's program. With heartfelt deliberation, we have chosen films that are not only talented and innovative but also representative of diverse cultures and histories from around the world. It is our aspiration that our festival's participants engage deeply with the realm of cinematic art, uniting around captivating narratives and sharing their own cultural stories during this event. Through this experience, we hope that participants will experience the cultural richness of Azerbaijan, and share their love for their own countries and friendship that knows no bounds.

SALAM INTERNATIONAL YOUTH FILM FESTIVAL
2023
2nd edition

# BƏDİİ FİLMLƏR/ FEATURE FILMS

SALAM INTERNATIONAL YOUTH FILM FESTIVAL
2023
2nd edition

SALAM INTERNATIONAL YOUTH FILM FESTIVAL
2023
2nd edition

SALAM INTERNATIONAL YOUTH FILM FESTIVAL
2023
2nd edition



Ailə filmi/
*Family, coming of age*
90'
Norveç/*Norway*
2023

# DANCING QUEEN



**Rejissor/*Director*:** Aurora Gossé
**Dil/*Language*:** Norwegian
**Aktorlar/*Cast*:** Liv Elvira Kippersund Larsson, Anders Baasmo, Andrea Bræin Hovig

**Sinopsis/*Synopsis*:**

(AZ) Məşhur rəqqas Edvin onun yaşadığı şəhərə köçəndə Minanın(12) dünyası alt-üst olur. O, aşiq olur. Edvin yerli uşaqları yeni rəqs qrupu yaratmaq üçün baxışlara dəvət edəndə, Mina şansını görür və qeydiyyatdan keçir. Sevgidən məst olub özünü həyəcana atır. Ancaq onun unutduğu bir vacib şey var: O, rəqs edə bilmir!

(ENG) *Mina(12) gets her world turned upside down when the famous dancer Edvin moves to her town. She falls head over heels in love, and when he invites the local kids to an an audition for a new dance crew, Mina sees her chance and signs up. Intoxicated by love she throws herself into the excitement. But there's one essential thing she has forgotten: She can't dance!*



Berlinale 73. Internationale Filmfestspiele Berlin
Generation



Drama/*Drama*
86'
Tayland, Sinqapur, Fransa, Hollandiya, Filippin/*Thailand, Singapore, France, the Netherlands, Phillipines*
2022

# ARNOLD IS A MODEL STUDENT

**Rejissor/*Director*:** Sorayos Prapapan
**Dil/*Language*:** Thai
**Aktorlar/*Cast*:** Korndanai Marc Dautzenberg, Winyu Wongsurawat





**Sinopsis/*Synopsis*:**
(AZ) Arnold bir çox akademik mükafatlar qazanmış ağıllı bir tələbədir. Bir gün o, tələbələrə imtahanlarında saxtakarlıq etməyə kömək edən gizli bizneslə məşğul olan Bi ilə tanış olur. Bi Arnolddan onun aldadıcı biznesinə qoşulmağı xahiş edir və ona çoxlu pul təklif edir. Arnold Binin təklifi barəsində düşünərkən, məktəblərinin onların azadlıqlarına hörmətsizliyindən narazı olan bir çox məktəb yoldaşları böyük etiraz aksiyası təşkil edirlər.
(ENG) *Arnold is a clever student who has won many academic awards. One day, he meets Bee who runs an underground business helping students cheat on their exams. Bee asks Arnold to join his cheating ring and offers him a lot of money.*
*While Arnold considers working with Bee, many of his schoolmates, unhappy with their school's disrespect of their freedom, organise a big protest.*

Locarno Film Festival
Official Selection

SPECIAL MENTION
2022
SINGAPORE INTERNATIONAL FILM FESTIVAL

27th BUSAN
International Film Festival
5–14 October 2022



Drama/*Drama*
99’
Polşa, İsrail, Almaniya/
*Poland, Israel, Germany*
2023

# DELEGATION

**Rejissor/*Director***: Asaf Saban
**Dil/*Language***: Hebrew, Polish, English
**Aktorlar/*Cast***: Yoav Bavly, Neomi Harari, Leib Lev Levin, Ezra Dagan, Alma Dishy

**Sinopsis/*Synopsis*:**
(AZ) Üç israilli məktəb dostu orduya getməzdən əvvəl sonuncu dəfə birlikdə Polşadakı Holokost düşərgələrinə olan sinif səfərində iştirak edirlər. Səfər zamanı konsentrasiya duşərgələri fonunda utancaq oğlan Frisch, həvəskar rəssam Nitzan və sinif qızlarının sevimlisi İdo sevgi, dostluq və siyasət məsələləri ilə məşğul olurlar. Bu səyahət onları həmişəlik dəyişəcək.
(ENG) *Three Israeli high school friends take part in a class trip visiting Holocaust sites in Poland – the last time together before going to the army. During the trip, shy boy Frisch, aspiring artist Nitzan and class heartthrob Ido deal with issues of love, friendship and politics against the backdrop of concentration camps and memorial sites. This journey will change them forever.*





Berlinale 73 Internationale Filmfestspiele Berlin Generation



Ailə Draması/
*Family Drama*
98'
Belgium, Netherlands/
*Belçika, Hollandiya*
2023

# SEA SPARKLE

**Rejissor/*Director*:** Domien Huyghe
**Dil/*Language*:** Dutch
**Aktorlar/*Cast*:** Saar Rogiers, Hilde De Baerdemaeker, Valentijn Dhaenens, Sverre Rous

**Sinopsis/*Synopsis*:**
(AZ) Şimal dənizində balıqçı gəmisi müəmmalı şəraitdə qəzaya uğrayır. İnsanlar pıçıldayırlar ki, günahkar kapitandır. Onun yeniyetmə qızı Lena gəminin təsadüfən batmadığından şübhələnir. Heç kim ona inanmır, hətta ən yaxın dostu da. Dəniz səthinin altında sürüşən nəhəng bir kölgə gördükdən sonra Lena, naməlum dəniz canlısının dərinliklərdə gəzdiyini sübut etməyə qərarlıdır...

*(ENG) A North Sea fisherman dies at sea under mysterious circumstances. People whisper that the captain is to blame. His teenage daughter Lena however suspects the ship did not go down by accident. Nobody believes her not even her best friend. When Lena glimpses a huge shadow slithering beneath the sea surface, she is determined to prove that a huge, unknown sea creature is roaming the deep…*





Berlinale 73. Internationale Filmfestspiele Berlin
Generation



Drama/*Drama*
102'
İsveç/*Sweden*
2022

# EXODUS

**Rejissor/*Director*:** Abbe Hassan
**Dil/*Language*:** Arabic
**Aktorlar/*Cast*:** Jwan Alqatami, Ashraf Barhoum, Isa Aouifia

**Sinopsis/*Synopsis*:**
(AZ) Peşəkar insan qaçaqmalçısı Sem (40) bütün ailəsi Suriya müharibəsində itkin düşmüş 12 yaşlı Amalı könülsüz şəkildə xilas etdikdə iki dünya toqquşur. Amal ailəsinin İsveçə getdiklərinə inanır və onları tapmaq üçün səyahətə çıxır. Sem tərəddüd edir, lakin qızı naməlum torpaqlarda tək buraxmaq fikrindən narahat olur və ona qoşulur.
(ENG) *Two worlds collide when Sam 40, a professional people smuggler, reluctantly saves Amal, a 12-year-old girl whose whole family has gone missing in the Syrian war. Amal believes that they are on their way to Sweden so she sets out on a journey to find them. Sam hesitates but is troubled by the thought of leaving the girl alone in a no-mans land and gets dragged in.*





Göteborg Film Festival



Ailə Dramasɪ/
*Family Drama*
94'
Serbiya/*Serbia*
2022

# GOJI BERRIES

**Rejissor/*Director***: Sreten Jovanovic
**Dil/*Language***: Serbian
**Aktorlar/*Cast***: Nada Blam,Tijana Mladenovic, Dimitrije Ilic, Rastko Jankovic, Simon Jegorovic, Jelica Kovacevic, Miljana Kravic, Rade Marjanovic, Dusan Radovic, Nina Sinadinovic, Vesna Stanojevic, Branko Vidakovic

**Sinopsis/*Synopsis*:**

(AZ) Ailələrin dağıldığı, valideynlərin uşaqlarından uzaqlaşdığı və insanların ailə dəyərlərinə laqeyd qaldığı şəhər həyatının təlaşında, əsas qəhrəmanlarımız, astma xəstəliyindən əziyyət çəkən Anda(6) və qardaşı Aleksa(12) yola düşürlər. Onlar xoşbəxtliyə aparan yolların axtarışında kəndə qaçmaq qərarına gəlirlər. Səyahətləri qeyri-müəyyənlik və gözlənilməz dönuşlərlə dolu bir macəraya çevrilir.

*(ENG) In the hustle and bustle of urban life, where families have become disconnected, parents alienated from their children, and core family values neglected, our main protagonists, Anda(6), who suffers from asthma, and her brother Aleksa(12), embark on a quest to find their path to happiness. They decide to escape to the countryside, where their journey becomes an adventure filled with uncertainty and unexpected twists.*







Drama/*Drama*
88'
Azərbaycan/*Azerbaijan*
2016

# RED GARDEN



**Rejissor/*Director*:** Mirbala Salimli
**Dil/*Language*:** Azerbaijani
**Aktorlar/*Cast*:** Magsud Mammadov, Gulzar Gurbanova, Taleh Badiyev

**Sinopsis/*Synopsis*:**
(AZ) Əsil-nəcabətli kiçik şəhər müəllimi Abbas çox istəyir ki, onun nəslini davam etdirəcək bir varisi, oğlu olsun. Lakin onun sevimli həyat yoldaşı Vəfa xəstəliyə görə hamilə qalmaqda çətinlik çəkir. Vəfa öləndə, kədər Abbası tənha, laqeyd, soyuqqanlı bir insana çevirəndə, hər şey dəyişir. Amma bəzən heç gözləmədiyin yerdə ümid tapırsan...

(ENG) *Abbas, small-town teacher of noble birth, desperately wants to have an heir, a son who would continue his line. But his beloved wife Vafa has trouble conceiving due to illness. Everything changes when Vafa dies and grief turns Abbas into a recluse, apathetic and cold. But sometimes you find hope where you least expect it…*



Dhaka International Film Festival

# SEMİNARLAR/ WORKSHOPS

SALAM INTERNATIONAL YOUTH FILM FESTIVAL 2023

2nd edition

# KINOMARAFON SEMİNARI/CINEMARATHON WORKSHOP

(AZ) "Kinomarafon" seminarı Azərbaycan Kinomarafonu layihəsinin prinsiplərinə uyğun olaraq keçirilir. Azərbaycan Kinomarafonu (CineMarathon/Azerbaijan) öz fəaliyyətini 2012-ci ilin sentyabr ayında, 2004-cü ildə ABŞ-da yaranmış və sonradan bir çox ölkədə geniş populyarlıq qazanan beynəlxalq Cinemasports (cinemasports.com) layihəsi çərçivəsində başlayıb. İştirakçılar, verilmiş mövzuda (mövzu tədbir günü elan olunur), qısa müddət (10 ya da 24,48 saat) ərzində, əl altında olan vasitələrdən istifadə edərək filmlər hazırlayırlar. Məqsəd - hazır işlərin qiymətləndirilməsi deyil, iştirakçılara ekstremal məhdud zaman hüdudları şəraitində yaradıcı prosesi hiss etmək, özünü ifadə etmək imkanı yaratmaqdır. "Salam" BYFF 2019-da baş tutan kinomarafon zamanı 20 qısa film çəkilmişdir.

(ENG) The "Cinemarathon" seminar is held in accordance with the principles of the Azerbaijan Cinema Marathon project. Azerbaijan Cinema Marathon (CineMarathon/Azerbaijan) started its activity in September 2012 within the framework of the international Cinemasports (cinemasports.com) project, which was created in the USA in 2004 and later gained wide popularity in many countries. Participants prepare films on a given topic (the topic is announced on the day of the event) within a short period of time (10 or 24.48 hours) using the tools at hand. The goal is not to evaluate the finished works, but to give the participants an opportunity to feel the creative process and express themselves in the conditions of extremely restricted time limits. During the film marathon held at "Salam" IYFF 2019, 20 short films were shot.



## Eldar Albertsson/Eldar Albertsson

(AZ) Kinematoqrafçı. Rüstəm İbrahimbəyovun Beynəlxalq Kino Məktəbinin 2010cu il məzunu. Kreativ Prodüser kimi bədii "Şəhər motivləri 4.1" (160 dəq) və iki epizod Rejissoru kimi sənədli "Bakı Sübhdən Günbatanadək" (60 dəq) tammetrajlı beynəlxalq kino almanaxlarında.Cinemasports beynəlxalq layihəsi əsasında yaradlmış və mütəmadi keçirilən Azərbaycan Kinomarafonun (10 və ya 24 saat ərzində qisa filmlərin hazırlamasını nəzərdə tutan) təsisçi və prodüserlərindən biri.

(ENG) Filmmaker. Alumnus of International Cinema School of Rustam Ibragimbekov, 2010feature length anthology "Urban Motives 4.1" (160 min) as a Creative Producer and documentaryanthology "BAKU from Dawn till Dusk" (60 min) as a Director of two episodes. One of the founders and producers of Azerbaijani Cinemarathon based on Cinemasports international film project, which consistently holds one-day event, where it is required to make a film within 10 or 24 hours.



## Qurban Bünyatov/Gurban Bunyatov

(AZ) Prodüser, rejissor, ssenari müəllifi. "CineMarathon Azerbaijan" Təsisçisi və Produseri. "BUNYATOV & Co - Creative Consulting" Təsisçisi. "Nasimi Festival"-da İstehsalat Meneceri. "Leo Burnett Azerbaijan"-da Kreativ Direktoru. Film Produseri, Ssenarist. Bir çox xarici və yerli layihələrin Produseri və İstehsalat Meneceri.

(ENG) Producer, film director, scriptwriter. Founder and Producer of the "CineMarathon Azerbaijan". Founder of the "BUNYATOV & Co - Creative Consulting". Production Manager of the "Nasimi Festival". Creative Director of the "Leo Burnett Azerbaijan". Film Producer and Screenplay Writer. Producer and Production Manager of the several international and local projects.



## Tərlan Rəsulov/Tarlan Rasulov

(AZ) Tərlan Rəsulov teatr rejissoru, dOM müstəqil teatrının yaradıcısı, tərcüməçi, menecer, prodüser, dramaturq və tədqiqatçıdır. Mədəniyyət və İncəsənət Universitetində müəllim, Azərbaycan Teatr Xadimləri İttifaqında Eksperimental Teatr Laboratoriyasının rəhbəri vəzifələrində çalışır. EURODRAM – dramaturji tərcümə Avropa şəbəkəsinin, Şərqi Avropa Teatr Platformasının, Azərbaycan Peşəkar Kinorejissorlar Gildiyasının, Teatr Xadimləri İttifaqının üzvüdür. Onun "Limbo" immersiv tamaşası 2019-cu ildə keçirilmiş "Tuğanlıq" türkdilli teatrların VII beynəlxalq festivalında "Yeni teatr məkanı və tamaşaçılarla ünsiyyətin yeni üsullarının inkişaf edilməsi" xüsusi mükafatına layiq görülmüşdür.

(ENG) Tarlan Rasulov is a theatre director, founder of the dOM independent theatre company (Azerbaijan), translator, manager, producer, writer and performance scholar. He is a PhD Candidate in Theatre Studies of the University of Culture and Arts of Azerbaijan. Head of the laboratory of the Experimental Theatre and Consultant of Azerbaijan Theatre Union. Tutor in Azerbaijan State University of Culture and Arts. Member of EURODRAM-European network for drama in translation, East European Performing Arts Platform, Guild of Professional Filmmakers of Azerbaijan, Azerbaijan Theatre Union. His immersive performance "Limbo" (dedicated for World Refugee Day) won a special prize "For the development of a new stage space and ways of communication with the audience" at the VII International Festival of Turkic-speaking theatres "Tuganlyk" in 2019.



## Əsmər Abdullayeva/Asmer Abdullayeva

(AZ) Əsmər Abdullayeva Rəssamlıq Akademiyasının İncəsənət tarixi fakültəsinin ekspertiza və bərpa şöbələri üçün tədris proqramları hazırlayan elmlər namizədi, dosent, sənətşünasdır. O, Azərbaycanda mədəni və yaradıcı sənayeləri dəstəkləyən və təşviq edən platforma kimi çıxış edən müstəqil yaradıcılıq məkanı olan Asmart Creative Hub-ın təsisçisi və sahibidir. Beş il ərzində (2015-2020) Azərbaycan Respublikası Təhsil Nazirliyi, The Prince's Foundation Ənənəvi İncəsənət Məktəbi (London, Böyük Britaniya) və Azərbaycan Dövlət Akademik İncəsənət Akademiyası arasında Birgə Akademik İncəsənət Proqramı layihəsinin koordinatoru olub. "Azərxalça" SC-nin kreativ direktorudur. Bundan əlavə, Əsmər 4 kitabın, çoxlu sayda məqalələrin, nəşrlərin müəllifi və yaradıcı sənayelər və mədəniyyət idarəçiliyi sahəsində beynəlxalq təlimçidir.

(ENG) Asmer Abdullayeva is a PhD, associate professor, art critic that develops educational programs for expertise and restoration departments of History of Art faculty of Art Academy. She is the founder and owner of Asmart Creative Hub, an independent creative space that acts as a platform that supports and promotes cultural and creative industries in Azerbaijan. During five years (2015-2020) she was the coordinator of the project on a Joint Academic Art Programme between Ministry of Education of the Republic of Azerbaijan,The Prince's Foundation School of Traditional Arts (London, GB), and Azerbaijan State Academy of Arts. She is the creative director of Azerkhalcha JSC. Furthermore, Asmer is the author of 4 books, a large number of articles, publications, and an international trainer in the field of creative industries and cultural management.



# REJİSSORLUQ SEMİNARI/DIRECTING WORKSHOP

## ORXAN AĞAZADƏ/ORKHAN AGHAZADEH

(AZ) Orxan Ağazadə hal hazırda Azərbaycanda fəaliyyət göstərən müəllif-rejissordur. Bakı Slavyan Universitetində Jurnalistika üzrə bakalavr pilləsində oxuyub. Dövlət təqaüdü vasitəsilə Böyük Britaniyada yerləşən London Film School-da Filmmaking üzrə maqistr pilləsini fərqlənmə ilə bitirib. Onun ilk qısa metrajlı "Leninə Məktub" sənədli filminin premyerası Leipzig Beynəlxalq film festivalında (Almaniya) baş tutub. Diplom işi olan "Oturacaqlar" filmi bir neçə nüfuzlu festivalda (Palm Springs Short FF, Angers Premiers Plans FF, Tampere FF, Brussels FF, Poitiers FF) iştirak etmişdir. Orxanın "Məhbus" adlı tam metrajlı film layihəsi inkişaf üçün Kann Film festivalının Cinefondation rezidensiyasına (Paris, Fransa 2020) və həmçinin eyni ildə La Prevote rezidesiyasına seçilmişdir. Layihə həmçinin Rotterdam Film Festivalının Cinemart proqramında iştirak etmişdir. Orxanın ilk debut layihəsi olan "Kinomexanikin Qayıdışı" hibrid sənıdli filmi Fransa - Almaniya birgə koproduksiyasıdır. Film hal hazırda post prodakşn mərhələsindədir.

(ENG) Orkhan Aghazadeh - is a writer-director based in Azerbaijan. After his BA in Journalism and Mass Communications, he obtained a scholarship to do an MA in Filmmaking at London Film School and graduated with distinction. His first short documentary 'A Letter to Lenin' was premiered at Leipzig International film festival. His graduation short film 'The Chairs' was acceptedby many festivals including Palm Springs Short FF, Angers Premiers Plans FF, Tampere FF, Brussels FF, Poitiers FF and won awards in others. His feature-film project 'The Prisoner' was selected to be developed by the Cinefondation Residency of Cannes Film Festival (Paris, France) in 2020 and to La Prevote residency (Bordeaux, France 2021). The project was also part of Cinemart of Rotterdam Film Festival. Orkhan's first debut hybrid documentary film "The Return of The Projectionist" is a French-Germany coproduction. The project is now in post-production.



"Oturacaqlar" filmindən kadrlar
*Stills from the film "The Chairs"*



(AZ) Seminarda rejissorluğun əsasları haqqında, detallara varmadan ümumi məlumat veriləcək. Həmçinin, bir filmin ideya halında olan etapdan yekun məhsula qədər keçdiyi mərhələlər barədə məlumat veriləcək. Bütün bunlar şəxsi təcrübəyə əsaslanaraq auditoriyaya müvafiq audiovizual materiallarla təqdim olunacaq.

(ENG) The workshop will give information about the basics of film directing without diving into too much detail. During the allocated time the audience will get skills about the stages of film production (from idea to the final product). All the information will be based on personal experience and will be followed up with the suitable audio visual content.

# SSENARİ SEMİNARI/SCRIPT WORKSHOP



## NƏRGİZ BAĞIRZADƏ/NARGIZ BAGHIRZADE

(AZ) 2010-cu ildə Nərgiz Bağırzadənin "Sabahdan sonrakı gün" hekayə kitabı Azərbaycan Milli Kitab Mükafatının uzun siyahısına daxil edilib. Həmin il Nərgiz Gənc Azərbaycan Yazıçıları üçün Prezident Təqaüdünə layiq görülüb. 2013-cü ildə onun "Face Book. Post Scriptum" ("Face Book. Life")pyesi Latviyanın Riqa şəhərində səhnələşdirilib və beynəlxalq teatr festivallarında iştirak edib. 2016 – "Batumi Beynəlxalq Art-house film festivalı"nın münsiflər heyətinin üzvü, Gürcüstan. 2018 – "Potensial" Film Platformasının münsiflər heyətinin üzvü, Rusiya. Azərbaycan və Rusiya istehsalı olan "Bakı, mən səni sevirəm", "Qatar adlanır – vaxt", "Çempionların anaları", "16+", "Yayda asfalt istidir" (ssenari 2021-ci ildə Rusiya Mədəniyyət Nazirliyinin maliyyə dəstəyini alıb) bədii filmlərinin və seriallarının ssenari müəllifi. Onun ssenariləri Azərbaycanda və Rusiyada bir neçə qrant qazanıb.

(ENG) In 2010 Nargiz Baghirzade's story book "The Day After Tomorrow" was included in the long-list of the National Book Award of Azerbaijan. In the same year Nargiz became Presidential Scholarship for Young Azerbaijani Writers.
In 2013 her play "Face Book. Post Scriptum" ("Face Book. Life"), staged in Riga, Latvia and participated in international theater festivals.
2016 – Member of the jury of «Batumi International Art-house film festival», Georgia.
2018 – Member of the jury of «Potential» Film Platform, Russia.
Scriptwriter of feature films and series of Azerbaijani and Russian production – "Baku, I love you", "Train called – time", "Mothers of Champions", "16+", "The asphalt in summer is warm" (this script won the financial support of the Russian Ministry of Culture in 2021).
Her scripts have won several grants in Azerbaijan and Russia.



"Yayda asfalt istidir" filmindən kadr
*Still from the "The asphalt is Warm in Summer" film*



"Neslavyanka" serialından kadr
*Still from the "Neslavyanka" series*

(AZ) Hekayənin ürəyi nədir, hekayəni irəli aparan, bizi diqqətimizi ekrandan çəkməməyə, empatiyaya və hiss etməyə vadar edən nədir? Bu – maraqlı, qeyri-trivial, canlı personajlardır. Ssenari seminarı zamanı hər komanda məhz belə personaj yaradacaq və öz qəhrəmanı üçün digər komandaların personajlarından bir rəqib seçəcək. Bütün bunların bizi hara aparacağını görəcəyik.

(ENG) What is the heart of the story, what drives the story forward, makes us pay attention to the screen, empathize and feel? These are interesting, ambiguous, non-trivial, living characters. We will come up with such characters at the script workshop with each team. And as for the opponents, they will be chosen from the characters of other teams. And we'll see where they take us.



# SET DİZAYN SEMİNARI/SET DESIGN WORKSHOP

## LEYLA QABULOVA/LEYLA GABULOVA

(AZ)Leyla Qabulova, rəssamlıq, tekstil, animasiya və kino sahəsində təcrübəsindən istifadə edərək müxtəlif mediada çalışan interdissiplinar rəssam və tədqiqatçıdır. O, Azərbaycan Tibb Universitetini bitirdikdən sonra təhsilini Böyük Britaniyanın London və Çexiyanın Praqa şəhərlərində davam etdirib və burada praktiki rəssamlıq bacarıqlarını inkişaf etdirib. Öz keçmişindən istifadə edərək, o, dünyanı necə dərk edəcəyini, təmsil edəcəyini və şərh edəcəyini yeni perspektivlər yaradaraq, incəsənət və elm arasındakı əlaqəni araşdırır. Onun əsərləri bir sıra milli və beynəlxalq sərgilərdə nümayiş etdirilib, həmçinin ARTIM Layihə Məkanında və Azərbaycan Rəssamlığı Muzeyində yer almışdır. Əsərlərinin yaranması zamanı tez-tez elm işçiləri və peşəkar qurumlarla əməkdaşlıq edir.

(ENG)Leyla Gabulova is an interdisciplinary artist and researcher who works in mixed media, using her experience in painting, textiles, animation, and film to create immersive spaces. After graduating from Azerbaijan Medical University, she continued her education abroad in London, United Kingdom, and Prague, Czech Republic, where she also developed her practical artistic skills. Using her background, she explores the relationship between art and science to create fresh perspectives on how to comprehend, represent, and interpret the world. Her artwork has been displayed in several national and international exhibitions, as well as ARTIM Project Space and the Museum of Azerbaijani Painting. In her work, she frequently cooperates with scientists and professional institutions.



“Transmutasiya”, 2022
*“Transmutation”, 2022*



“0.001”, 2022
*“0.001”, 2022*

(AZ) Bu qısa və dinamik seminar çərçivəsində iştirakçılar, müzakirələr və nümunələr vasitəsilə film setlərinin və mühitin yaradılma sənətinə dalacaqlar. Onlar, rejissorlar, təsvir rejissorları və quruluşçu rəssamlar arasındakı əməkdaşlıq prosesini öyrənməklə yanaşı, detallar, rəng sxemləri və dekorasiyalarına diqqət yetirərək quruluşçu rəssamların hekayələrə necə həyat verdiyini öyrənəcəklər. Seminarın sonunda, iştirakçılar kinematoqraf dünyasında öz yaradıcı səfərləri üçün əsas biliklərlə təmin ediləcəklər və quruluşçu rəssamın filmin ümumi təqdimatında oynadığı əhəmiyyətli rolunu başa düşəcəklər.

(ENG) In this short and dynamic workshop, participants will immerse themselves in the art of creating visually captivating movie sets and environments through lively discussions and real-world examples. They will uncover how production designers breathe life into stories with meticulous attention to detail, research, color schemes, and set decorations, while gaining valuable insights into the collaborative process among directors, cinematographers, and production designers. Through this exploration, they will discover how production design significantly enhances the overall storytelling experience. By the conclusion of the workshop, students will possess an understanding of production design’s pivotal role in filmmaking, equipping them with basic knowledge for their own creative journeys in the world of cinema.

# PROGRAM

Monday, 28 August, 2023

9.00 – 10.30 Transportation (from H.Aliyev Center to Zira Eco-Park)
10.30 – 11.00 Official Opening Ceremony of the Film Festival
11.00 – 13.00 Feature Film: "DANCING QUEEN"(Norway/90'/2023)
13.00 – 14.00 Lunch
14.00 – 15.00 DIRECTING Workshop: Orkhan Aghazadeh
15.00 – 16.00 CINEMARATHON Workshop Introduction
16.30 – 18.30 Feature Film: "ARNOLD IS A MODEL STUDENT"(Thailand, Singapore, France, the Netherlands, Phillipines/86'/2022)
18.30 – 19.30 Transportation (from Zira Eco-Park to H.Aliyev Center)

Tuesday, 29 August, 2023

9.00 – 10.00 Transportation (from H.Aliyev Center to Zira Eco-Park)
10.00 – 12.30 Feature Film: "DELEGATION"(Poland, Israel, Germany/99'/2023)
12.30 – 13.30 SCRIPT Workshop: Nargiz Baghirzade
13.30 – 14.30 Lunch
14.30 – 17.00 Feature Film: "SEA SPARKLE" (Belgium, Netherlands/98'/2023)
17.00 – 18.30 CINEMARATHON
18.30 – 19.30 Transportation (from Zira Eco-Park to H.Aliyev Center)

Wednesday, 30 August, 2023

9.00 – 10.00 Transportation (from H.Aliyev Center to Zira Eco-Park)
10.00 – 12.30 Feature Film: "EXODUS" (Sweden/102'/2022)
12.30 – 13.30 SET DESIGN Workshop: Leyla Gabulova
13.30 – 14.30 Lunch
14.30 – 17.00 Feature Film: "GOJI BERRIES" (Serbia/94'/2022) Meeting with co-director Ivan Jegorovic
17.00 – 18.30 CINEMARATHON
18.30 – 19.30 Transportation (from Zira Eco-Park to H.Aliyev Center)

Thursday, 31 August, 2023

9.00 – 10.00 Transportation (from H.Aliyev Center to Zira Eco-Park)
10.00 – 12.30 Feature Film: "RED GARDEN" (Azerbaijan/88'/2016) Meeting with director Mirbala Salimli and the cast
12.30 – 13.30 Free time
13.30 – 14.30 Lunch
14.30 – 15.30 Open discussion
15.30 – 17.00 Demonstration of CINEMARATHON films
17.00 – 20.00 Closing Ceremony and Musical Event
20.00 – 21.00 Transportation (from Zira Eco-Park to H.Aliyev Center)

# "SALAM" BYFF KOMANDASI / "SALAM" IYFF TEAM

**Təsisçi və direktor/Founder and CEO**
Nəriman Məmmədov/Nariman Mammadov
**Art-direktor/Art director**
Leyla Dostalizadə/Leyla Dostalizade
**Program direktoru/Program director**
Nərgiz Bağırzadə/Nargiz Baghirzade
**İnzibati menecer/Administrative manager**
Vasif Abbasov/Vasif Abbasov
**Dizayn menecer/Design manager**
Lalə İskəndərli/ Lala Iskandarli
**Koordinatorlar/Coordinators**
Əşrəf Məmmədov/Eshref Mammadov
Dilshad Yusifova/Dilshad Yusifova
Yakov Azaryayev/Jakov Azaryayev
Fuad Məmmədov/Fuad Mammadov
Elvin Quliyev/Elvin Guliyev
**SMM**
Elina Çerpakova/Elina Cherpakova
**Festival mühasibi/festival accountant**
Adilə Zeynalova/Adila Zeynalova
**Operatorlar/cameramen**
Elvin Yusifli/Elvin Yusifli
Rasim Məmmədov/Rasim Mammadov
**Fotoqraf/Photographer**
Emin Mirkərimov/Emin Mirkerimov
**Montaj/Editor**
Lalə Quliyeva/Lala Guliyeva
**Aparıcılar/Hosts**
Ayna Zarbaliyeva/Ayna Zarbaliyeva
Aliya Bayramova/Aliya Bayramova

## ƏLAQƏ/CONTACTS

**Address:**
Narimanov district, srt. Zia Bunyatov 1965
“Chinar Park” Business Center
No. 3A, 5th floor, Baku AZ1000, Baku, Azerbaijan

**Facebook:**
Salam International Youth Film Festival

**Instagram:**
@salamfilmfestival

**Website:**
www.salamfest.az

**Phone:**
(+994 12) 564 38 09
(+994 12) 564 38 20
(+994 55) 216 32 65
(+994 55) 345 62 29

SALAM

INTERNATIONAL YOUTH FILM FESTIVAL

2023